# Əsgərlərlə görüş

Hər il Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi öz şagirdləri sırasından Vətənimizin keşiyini çəkmək üçün hərbi xidmətə əsgər yola salır. Aprel ayında çağırışçı olan gənclər Təhsil Nazirliyinin müvafiq qərarı əsasında vaxtından əvvəl buraxılış imtahanlarında iştirak edərək hərbi xidmətə yollanırlar. Bu il də tədris mərkəzinin on şagirdi aprel ayında hərbi xidmətə yollanacaqlar. Bu şagirdlər üçün buraxılış imtahanı aprelin axırına təyin olunub. Məhz imtahanda iştirak etdikdən sonra şagirdlərimiz təyin olunmuş hərbi hissələrdə həqiqi hərbi xidmətə başlayacaqlar.

Tədris mərkəzi olaraq biz şagirdlərimizi hərbi xidmətə yola saldıqdan sonra da onlarla əlaqəni kəsmirik. Belə ki, həm valideynlərlə, həm də xidmət etdikləri hərbi hissə ilə əlaqə saxlayaraq, şagirdlərimizin durumları, necə xidmət etmələri və s. haqqında məlumat əldə edirik.

Təqdirəlayiq haldır ki, əsgərlərimiz də bizimlə əlaqəni kəsmirlər. İstər məzuniyyətə gəldikləri zaman, istərsə də xidmətlərini başa vurduqdan sonra onların ilk ziyarət etdikləri yerlərdən biri vaxtilə təhsil aldıqları təhsil müəssisəsidir. Bu da tədris mərkəzinin öz şagirdləri ilə necə isti münasibətdə olmasını göstərir.

Aprelin 2-də öz nümunəvi xidmətlərinə görə məzuniyyət alaraq evlərinə gələn, tədris mərkəzində aşpaz-qənnadıcı peşəsinə yiyələnmiş keçmiş şagirdlərimiz Fərid Cabbarlı və Təbriz Kərimov ilə görüş keçirilmişdir. Onlar mərkəz kollektivi və şagird heyəti ilə söhbətlərində hərbi xidmətin həqiqətən əsl kişilik məktəbi olduğunu bildirərək, yaxın günlərdə xidmətə yollanacaq şagirdlərə öz məsləhətlərini verdilər.

Görüşün sonunda tədris mərkəzinin rəhbərliyi ilə xatirə şəkilləri çəkildi. Onlara xidmətlərinin qalan hissəsini də sağ-salamat başa vuraraq geri dönmələri arzu edildi.

**İlham ƏFƏNDİYEV ,**
**tədris mərkəzinin gənclərin çağırışaqədərki hazırlığı rəhbəri.**

## İdman

# Boksçumuz ölkə çempionudur

Xəbər verdiyimiz kimi «Qəbələ» İdman Klubunun Boksçuları Gənclərin Azərbaycan birinciliyində çıxış ediblər. Sevindirici haldır ki, komandamız yarışı 4 medalla başa vurub.



Çəkisi 69 kiloqramadək olan idmançılar arasında mübarizə aparan boksçumuz Hidayət Musayev keçirdiyi 5 döyüşün hamısını qələbə ilə başa vurub və çempionatın baş mükafatına-qızıl medala layiq görülüb.

Onun komanda yoldaşları Rahil Məmmədli 81 kiloqoram, Nicat Muradzadə isə 91 kiloqram çəki dərəcəsində gümüş medal sahibi olublar.

75 kiloqram çəkidə mübarizə aparan Kamil Əhmədov bürünclə kifayətlənib.

# Beynəlxalq arenada növbəti uğurumuz

Azərbaycan Beynəlxalq arenada təmsil edən «Qəbələ» cüdoçuları ölkəyə medallarla qayıdıblar. Yunanıstanda keçirilən Gənclərin Avropa Kubokunda iştirak edən Mehman Sadıqov və Cəlil Cəlilov ümidləri doğrulddular. Belə ki, 55 kiloqram çəki dərəcəsində mübarizə aparan Mehman Sadıqov bütün rəqiblərini məğlub edərək qızıl medal sahibi olub. Cəlil Cəlilov isə 66 kiloqoram çəki dərəcəsində gümüş medala yiyələnib.



Ümumilikdə Azərbaycan İdmançıları beynəlxalq turnirdə 7 medal (1 qızıl, 1 gümüş, 5 bürünc) qazanıblar ki, bunun da 2-si «Qəbələ»nin payına düşür.

**Şöhrət SÜLEYMANOV.**

# XX əsrin ən böyük fəlakətlərindən biri

(Əvvəli 7-ci səhifədə).

Şüalanmanın geniş yayılmasının qarşısının alınması üçün ümumi səfərbərlik elan edildi. Bu son dərəcə məsul və mürəkkəb məsələyə komissiyanın sədri kimi ulu öndər Heydər Əliyev bilavasitə özü rəhbərlik etməyə başladı.

Aldıqları fiziki və mənəvi zərbələrə baxmayaraq, azərbaycanlı çernobılçılar uzun müddət diqqətdən kənarda, haqsızlıqla qarşılaşmış, heç bir qayğı ilə əhatə olunmamışdılar. AXC—Müsavat çütlüyü hakimiyyətdə olanda azərbaycanlı çernobılçılar unuduldu.

Qəzanın törətdiyi fəlakətlərin aradan qaldırılması üçün rayonumuzdan 21 nəfər səfərbərliyə alındı. Onlar fəlakətlərin aradan qaldırılmasında can-başla iştirak etdilər. Ancaq təəssüflər olsun ki, öz sağlamlıqlarını itirərək doğma yurdumuza bir əlil kimi qayıtdılar. Onlardan bir neçə qəbələli ötən dövr ərzində dünyasını dəyişmişdi. Qalanları isə ömürlük əlil statusu almışdır. O, dövrdə onlar heç bir qayğı ilə əhatə olunmamış, uzun müddət diqqətdən kənarda qalmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra Çernobılçı əlillər bu diqqət və qayğını hiss etməyə başladı. 1993-cü ilin dekbrında Milli Məclisdə «Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında» qanun qəbul edildi. Bununla ulu öndər bu kateqoriyadan olan insanlara olan diqqət və qayğısını bir daha nümayiş etdirdi. Respublika Prezidenti cənab İlham Əliyevin də Çernobıl əlillərinə qayğısı göz qabağındadır. Dövlət başçısının imzaladığı «Azərbaycan dövlətinin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olanlara, 1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olanlara, həqiqi xidmət dövründə Çernobıl qəzasının aradan qaldırılmasına cəlb edilmiş, həmin qəza nəticəsində əlil olmuş hərbi qulluqçulara və şəhid ailəsi üzvlərinə verilən müavinətlərin artırılması haqqında» fərmana əsasən, göstərilən kateqoriyadan olan şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə güzəştlər edilir. Bir sıra sərəncamlara uyğun olaraq müvafiq icra orqanları tərəfindən həyata keçirilən tədbirlər Çernobıl əlillərinin sosial rifahının yaxşılaşdırılmasında mühüm rol oynayır. Qəbələ Rayon İcra Hakimiyyəti də Çernobıl faciəsinin ildönümü münasibətilə qəzanın əlilləri ilə görüş keçirir, onların həlli vacib problemlərini həll edir.

**Aslan CƏLİLOV.**

# Xeyirxah insanlardan kömək gözləyirik

Qızım Gülüş Səferlinin 28 yaşı var. Epilepsiya xesteliyinden eziyyet çekir. Onu müalice etdirmeye maddi imkanım yoxdur. Ümidim xeyirxah insanlara qalıb. Xahiş edirem, xeste qızımın müalicesi üçün elinizden gelen köməyi menden esirgemeyesiniz.

**Səferli Mehriban Semed qızı (Gülüşün anası).**

Kapital Bankın Qebele filialında Gülüşün adına hesab nömresi de açılmışdır.

**Benefisiar (alan) bank**
Adı: Kapital Bank Qəbələ filialı
Kodu: 200491 VÖEN: 9900003611
Müxbir hesab: AZ37NABZ01350 10000000001944
S.W I. F.T. BIK AIIBAZ 2 X.

**Alan müştəri:**
Adı Səfərli Gülüş Elçin qızı.
AZ 63 AİİB38010019444901595149.

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarla Hacallı kənd sakini Əhmədov Hakim Məhəmməd oğlunun və ailə üzvlərinin adına verilmiş JN-296 F №-li (kod 40604018) Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixli 09 saylı qərarla Mirzəbəyli kənd sakini Muradov Namiq Şəmsəddin oğlunun və ailə üzvlərinin adına verilmiş JN-243 №-li (kod 40613018) Torpağa Mülkiyyət hüququna dair Dövlət aktı **itdiyi üçün** etibarsız sayılır.

Ağayev Ravid Hikmət oğluna məxsus olan 2947 №-li torpaq şəhadətnaməsi **itdiyi üçün** etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi Böyük Pirəli kənd inzibati ərazi nümayəndəsi **Knyaz Babayevə**, qardaşı

**ARİFŞAH BABAYEVİN**

vəfatı münasibətilə başsağlığı verir.

*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Məsul növbətçi A. C. Cəlilov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.
Redaktor: (024)20 5-19-14.
Ümumi: 5 - 15 - 56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.